# Şuşada quruculuq missiyası uğurla həyata keçirilir

***Şuşa işğal edildiyi gündən–1992-ci il mayın 9-dan 2020-ci il noyabrın 8-də azad edilənədək ötən 28 ildə xalqımızda bu şəhərin nə vaxtsa yağı tapdağından xilas olunacağına dərin inam var idi. Hər bir azərbaycanlı o günün tezliklə gələcəyinə, doğma Qarabağımızın "döyünən ürəyinin" düşməndən azad ediləcəyinə inanırdı. Bu inamı, ümidi Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində ordumuzun gündən-günə artan güc-qüdrəti yaratmışdı.***

Erməni faşizmi Qarabağı işğal altına saldıqdan sonra havadarlarına arxalanaraq, sülh danışıqlarından, torpaqları azad etməkdən boyun qaçırdı. Düşmən bununla kifayətlənməyib, musiqi və incəsənət beşiyini-qədim mədəniyyət paytaxtımız Şuşanı gələcəkdə, hətta Qarabağın paytaxtı elan etmək, qondarma rejimin parlamentini bu əzəli, tarixi şəhərimizə köçürmək iddiasını səsləndirdi... Ermənistanın baş naziri Nikol Paşinyan beynəlxalq norma və qaydaları pozaraq tez-tez Qarabağa gələrək, burada görüşlər keçirdi, keyf məclisləri qurdu, separatçı rejimin nümayəndələri ilə yallı getdi, hələ bunlar azmış kimi, bu iyrəncliyi televiziya ilə nümayiş etdirdi, "Qarabağ Ermənistandır, nöqtə" kimi məsuliyyətsiz bəyanatlar verdi. İşğalçı bununla da xalqımızda bir ümidsizlik yaratmaq, inadımızı qırmaq, inamımızı sarsıtmaq, sonda isə Qarabağı Ermənistana birləşdimək məqsədi güddü. Lakin Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz yağının bu planlarını alt-üst etdi, onların istəklərini ürəyində qoydu.

**(ardı 3-cü səhifədə)**

# Şuşada quruculuq missiyası uğurla həyata keçirilir

(əvvəli 1-ci səhifədə)



Şuşa qələbəsi Azərbaycan Silahlı Qüvvələrinin bütün güc-qüdrətinin, dünyanın ən müasir orduları sırasında yer aldığını, əsgər və zabitlərimizin igid, cəsur və qorxmazlığını, peşə bacarığı və ruh yüksəkliyini təsdiqi idi. Bu tarixi uğur ermənilərin "məğlubedilməz ordusu" haqqında mifi, uydurmanı alt-üst etdi. Bu parlaq qələbə dövlətimizin başçısının əsl siyasətçi, diplomat və sərkərdə kimi fəaliyyətinin məntiqi nəticəsi idi.

"Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir", "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"– müzəffər Ali Baş Komandanın xalqımıza olan müraciətində vurğulanan bu fikirlər artıq iki ildir ki, gerçəkləşir. Artıq iki ildir ki, müdrik Prezidentimizin rəhbərliyi ilə qədim Şuşa yenə də işğaldan əvvəlki xoş günlərini yaşayır, sevinc dolu sabahların ümidi ilə neçə-neçə uğura imza atır. İyirmi səkkiz il başından duman, çən çəkilməyən şəhərin yaralarına artıq iki ildir ki, məlhəm qoyulur, abadlıq-quruculuq layihələri getdikcə geniş vüsət alır, buradakı müqəddəs ocaqlar, ədəbiyyat, mədəniyyət və incəsənətimizin böyük simalarının ev-muzeyləri insanların ziyarətgah yerlərinə çevrilir, erməni vandalizminin dağıtdığı tarixi, mədəni abidələrə həqiqi sahiblərinin gücü və əzmi ilə yenidən "nəfəs" verilir. Şuşa dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri kimi keçirilən mərasimlərə "evsahibliyi" edir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Vətən savaşından sonra Şuşada olarkən, işğaldan əvvəlki şəhərdən əsər-əlamət qalmadığı diqqət çəkdi. Maddi-mədəni abidələrimizin erməni vandalizminin qurbanına çevrildiyi, düşmənin bu əzəli yurd yerimizdə oğurluq və talançılığa yol verdiyi bir daha aydın göründü. Saatlı, Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa məscidlərinin, Şuşa Realnı Məktəbinin, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstlərinin, Bülbülün ev-muzeyinin, Vaqifin məqbərəsinin, inzibati və yaşayış binalarının barbarlığa məruz qalması erməni faşizminin rəzil aqibətinin göstəricisi olduğunu təsdiqlədi.

Lakin dövlətimizin başçısının Qarabağın incisinin tezliklə yenidən tikilib qurulacağı, abadlaşdırılacağı, dünyanın ən möhtəşəm şəhərlərindən birinə çevriləcəyi vədinin gerçəkləşəcəyi heç kimdə şübhə doğurmadı.

İndi aradan ötən bu qısa müddətdə Şuşada genişmiqyaslı bərpa-quruculuq layihələri reallaşdırılıb. Şəhərə Zəfər yolunun çəkilişi reallaşıb. Bu qələbə, uğur yolunun tikintisinin qısa vaxtda həyata keçirilməsi Azərbaycan xalqının qazandığı parlaq zəfərin simvolu kimi dəyərləndirilib. Ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu bu layihə ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib.

Belə bir qısa vaxtda gerçəkləşdirilən və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərib.

Şanlı ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən təmizləyərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub.

Vətən müharibəsindən sonra 1992-ci ildə şəhərin işğalı zamanı erməni vandalizminə məruz qalaraq dağıdılan dahi şair Molla Pənah Vaqifin büstünün açılışı uğurla reallaşdırılan quruculuq layihələrindən biri olub. Xatırladaq ki, Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan bu büst Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb. Bundan başqa şairin muzey-məqbərə kompleksi də bərpa edilib.

Bu məqamda, xatırladaq ki, ümummilli lider Azərbaycana rəhbərliyinin birinci dönəmində milli ruhun yüksək səviyyədə reallaşması üçün gördüyü çox böyük işlər sırasında Azərbaycanın incisi sayılan Şuşada Vaqifin məqbərəsi ucaldılmışdı. Təəssüf ki, dövlətimizin başçısının Şuşaya səfərlərinin birində vurğuladığı kimi, o zaman heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüzkarlıq siyasəti yürüdəcək, bu tarixi şəhərimiz işğal altında qalacaq, tarixi abidələrimiz, məscidlərimiz, Vaqifin məqbərəsi dağıdılacaq. Azərbaycan xalqının çoxəsrlik irsi Qarabağ diyarından silinməyə məruz qalacaq…

Yeri gəlmişkən, məqbərənin hər detalında belə tarixi görkəm qorunub saxlanılıb. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulub, yağış suları üçün drenaj xətləri və elektrik xətləri çəkilib quraşdırılıb. Landşaftda istinad divarları və meydança tarixi görkəmi çərçivəsində qranitlə üzlənib. Eyni zamanda, ətrafda o dövrün şəkillərində əks olunduğu kimi, müxtəlif növ qızılgül kolları əkilib.

Şuşada 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandıran Bülbülün ev-muzeyi də işğal zamanı yararsız hala salınmış, yükdaşıyıcı divarlarında çatlar əmələ gəlmiş və divarlar çökmüşdü. Bərpa zamanı isə bütün bu zədələr aradan qaldırılıb. Dam örtüyü, taxta döşəmələr, qapı və pəncərələr çürüdüyündən və istismara yararsız hala düşdüyündən, binanın tarixi görkəmini qorumaq şərtilə yenilənib.

Üzeyir Hacıbəylinin heykəli isə dahi bəstəkarın 1985-ci ildə 100 illik yubileyi münasibətilə ucaldılmışdı. Heykəltaraş Əhməd Salikov tərəfindən hazırlanan bu abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdi.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli də artıq hazırlanıb. Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb.

Xatırladaq ki, sentyabrın 17-də reallaşan səfər çərçivəsində dövlətimizin başçısının və birinci xanımın şəhərdə inşa olunan yeni yaşayış kompleksində, hotel və konfrans mərkəzində, Mehmandarovların malikanə kompleksində, Yuxarı Gövhər Ağa məscidində və digər sosial-mədəni obyektlərdə aparılan təmir-tikinti işləri ilə bağlı tanışlığı bir daha göstərdi ki, Prezident İlham Əliyev bu şəhərə qayıdışın tezliklə reallaşmasına xüsusi önəm verir. Layihələrin icrası zamanı qarşıya çıxan problemlərin həllini daim diqqət mərkəzində saxlayır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olmaları dövlətimizin başçısının və birinci xanımın tarixi irsimizə necə məhəbbətlə, necə diqqətlə yanaşmalarından xəbər verir.

İşğal dövründə erməni faşizmi Azərbaycanın bu ərazisində əsrlər boyu yaşayan böyük şəxsiyyətlərimizin tarixi irsini məhv etməyə çalışıb. Şuşadan Azərbaycan izinin silinməsi üçün tarixi-mədəni abidələri dağıdaraq milli dəyərlərimizə ciddi ziyan vurub. Mehmandarovların da malikanəsi məhz bu çirkin niyyətlərin qurbanı olub.

Yuxarıda vurğulananlara əsaslanıb qeyd edə bilərik ki, Azərbaycan hazırda özünün ən şərəfli, məsuliyyətli və tarixi dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda, o cümlədən, Şuşada həyata keçirilən bərpa-quruculuq layihələri isə xalqımızı tərəqqiyə, daha parlaq gələcəyə aparır.

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**